**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Əmr 088
«30» iyun 2000-cı il
Sədr _______________ H. Babayev

# Azərbaycan Respublikasında adi və qoşa anbar şəhadətnamələrinin dövriyyəsi haqqında ƏS A S N A M Ə

## I. Ümumi müddəalar

1.1 Bu Əsasnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının "Qiymətli kağızlar haqqında" Qanununa, Azərbaycan Respublikasının "Girov Haqqında" Qanuna və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"-yə müvafiq olaraq hazırlanmışdır.

1.2 Bu Əsasnamə adi anbar şəhadətnaməsi, qoşa anbar şəhadətnaməsi və onun tərkib hissələri olan – anbar və girov şəhadətnamələrinin verilməsi, dövriyyəsi, ödənilməsi və bununla əlaqədar digər məsələləri tənzimləyir.

1.3 Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi və fiziki şəxslər anbar şəhadətnamələrindən istifadə edə bilərlər.

1.4 Bu Əsasnamənin məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

Mal anbarı – malların saxlanması, qorunması və bununla əlaqədar xidmətlər üzrə fəaliyyətləri həyata keçirən şəxsdir. Anbar şəhadətnaməsindən istifadə edən mal anbarları Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində (bundan sonra - QKDK) uçota durmalıdırlar.

Mal anbarının reqlamenti – malların anbarda saxlanması üçün qəbul edilməsi, saxlanması və qaytarılma qaydalarını, habelə saxlanmaq üçün qəbul edilmiş mallara qörə mal anbar şəhadətnamələri və digər anbar sənədlərinin verilmə

prosedurasını əks etdirən sənəddir.

Anbar şəhadətnaməsi – malın saxlanması uçun qəbul edildiyini təstiqləyən və mal anbarı tərəfindən malın sahibinə verilən qiymətli kağızdır. Anbar şəhadətnaməsi qoşa və adi ola bilər.

Qoşa anbar şəhadətnaməsi - iki hissədən – biri digərindən ayrıla bilən anbar şəhadətnaməsi və girov şəhadətnaməsindən (varrantdan) ibarətdir. Qoşa anbar şəhadətnaməsi və onun hər bir hissəsi orderli qiymətli kağız hesab olunur.

Adi anbar şəhadətnaməsi - malın saxlanması uçun qəbul edildiyini təstiqləyən və mal anbarı tərəfindən verilən təqdim edənə qiymətli kağızdır.

Anbar şəhadətnamələrinin reyestri – mal anbarı tərəfindən verilən anbar şəhadətnamələrinin uçotunu özündə əks etdirən qeydiyyat sistemidir.

Malların reyestri – saxlanmaq üçün qəbul edilmiş malların hərəkəti və cari vəziyyətinin uçotunu özündə əks etdirən qeydiyyat sistemidir.

II. Qoşa və adi anbar şəhadətnamələri

2.1. Qoşa anbar şəhadətnaməsinin hər bir hissəsində aşağıdakılar eynilə göstərilməlidir:

2.1.1 Yükü saxlamaq üçün qəbul edən və anbar şəhadətnaməsi verən mal anbarının tam adı, ünvanı, və bank rekvizitləri, eləcə də mal saxlandığı yer;

2.1.2 Anbar şəhadətnamələrinin reyestri üzrə anbar şəhadətnaməsinin cari nömrəsi;

2.1.3 Malı saxlamağa verən hüquqi və ya fiziki şəxsin tam adı, ünvanı (yaşayış yeri); hüquqi şəxslərin bank rekvizitləri, fiziki şəxsin şəxsiyyətini təstiq edən sənədin məlumatları;

2.1.4 Saxlamaq üçün qəbul edilmiş malın adı və ölçu miqdarı (ədəd və (və ya) yük yeri üzrə sayı və (və ya) ölçüsü (çəki, həcm)) lazım olduqda isə – saxlamaq üçün verilmiş malın keyfiyyət xüsusiyyəti;

2.1.5 Malın saxlanma müddəti: əgər malın saxlanma müddəti konkret bir müddət təyin edilməmişdirsə onda bu müddət mal anbarının fəaliyyət müddətindən artıq olmamalıdır;
2.1.6 Saxlama haqqının məbləği, yaxud saxlama haqqının hesablanması üçün əsas götürülən tariflər;

2.1.7 Maraqlı şəxslərin mallar ilə rəftar barəsində qəbul etdikləri xüsusi qeydlər;

2.1.8 Əmtəə sənədləri nüsxələrinin sayı;

2.1.9 Anbar şəhadətnaməsinin verilmə tarixi.

Qoşa anbar şəhadətnaməsinin hər iki hissəsi mal anbarının möhürü ilə təsdiq olunmaqla eyni səlahiyyətli şəxs tərəfindən imzalanmalıdır.

Şəhadətnamə verildiyi zaman onun üz və arxa tərəfində, bu Əsasnamədə göstərilən qeyd və yazılar istisna olmaqla, edilən bütün digər yazılar, qeydlər, düzəlişlər və əlavələr etibarsız sayılır.

Bu Əsasnamənin 2.1 bəndində göstərilən zəruri rekvizitlərin tələblərinə cavab verməyən sənədlər qoşa anbar şəhadətnaməsi hesab olunmur.

2.2. Adi anbar şəhadətnaməsi, bu Əsasnamənin 2.1-ci bəndinin 2.1.1, .2.1.2 və 2.1.4-2.1.9 yarımbəndlərində göstərilən məlumatları, habelə onun təqdim edənə olması haqqında qeydi özündə əks etdirməlidir.

Bu bəndin şərtlərinə cavab verməyən sənədlər adi anbar şəhadətnaməsi hesab edilmir.

Adi anbar şəhadətnaməsini saxlayan şəxs onun sahibi hesab edilir.

2.3. Qoşa və adi anbar şəhadətnamələrinin blankları QKDK-dan xususi razılıq (lisenziya) almış mətbəə tərəfindən çap olunur. Qoşa və adi anbar şəhadətnamələrinin blanklarının vahid nümunəvi forması QKDK tərəfindən müəyyən edilir (Əlavə № 1). Blankların seriyasi və nömrəsi anbar şəhadətnaməsinin hər iki hissəsində eyni olmalıdır. Qoşa anbar şəhadətnaməsi blankında anbar şəhadətnamələrinin ötürülməsi haqqında qeydlər üçün ayrıca qrafa, eləcə də girov şəhadətnaməsi üzrə girovla təminat verilən borcun məbləği və ödənilmə müddəti haqqında qeydlərin aparılması üçün yer olmalıdır.

2.4. Malın verilməsi və saxlanması faktı anbar tərəfindən verilən qoşa və ya adi anbar şəhadətnaməsi ilə təsdiq edilməlidir. Bu zaman anbar saxlancı haqqında yazılı formada müqavilənin tərtib olunması tələb olunmur.

2.5. Anbar şəhadətnaməsi üzrə saxlanmaq üçün verilən malın özgəninkiləşdirilməsi, yalnız aidiyyatı anbar şəhadətnaməsi vasitəsilə həyata keçirilə bilər.

2.6. Mal anbarı qoşa anbar şəhadətnaməsi üzrə saxlanmaq üçün qəbul etdiyi malları sığorta edə bilər. Bu halda qoşa anbar şəhadətnaməsinin hər bir hissəsində sığorta müqaviləsinə əsasən sığortaçı haqqında qeyd aparılmalıdır.

III. Ambar şəhadətnaməsi ilə saxlanmaq üçün qəbul edilmiş malın girovu

3.1. Qoşa və adi anbar şəhadətnaməsi üzrə saxlanmaq üçün qəbul edilən malların girovu, yalnız girov şəhadətnaməsinin ayrılması və verilməsi yolu ilə və ya adi anbar şəhadətnaməsinin bu Əsasnamədə nəzərdə tutulan qaydada girovsaxlayana verilməsi yolu ilə həyata keçirilməlidir. Girov, mal anbarı və ya üçüncü şəxsin xeyrinə qoyula bilər.

3.2. Girov hüququ, girov şəhadətnaməsi QKDK-da dövlət qeydiyyatından keçdikdən sonra yaranır. Bu hüquq həyata keçirildiyi zaman girov qoyulan əmlakın ödənişə yönəldilməsi və qanunvericilikdən nəzərdə tutulan diqər əməliyyatlar bu Əsasnamə ilə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, "Girov haqqında" Azərbaycan Respublikası Qanunda və "Bütün növ qiymətli kəğızlarla girovun və qiymətli kəğızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması" Qaydalarında nəzərdə tutulmuş qaydada əlavə dövlət qeydiyyatından keçdikdən sonra həyata keçirilir.

IV. Mal anbarı tərəfindən anbar şəhadətnamələrinin verilməsi

4.1. Aşağıda göstərilmiş mallar saxlanmaq üçün anbar tərəfindən qəbul edildiyi zaman həmin mallara qoşa və adi anbar şəhadətnaməsi verilə bilməz:

Xüsusi• mülkiyyət, tam təsərrüfatçılıq səlahiyyəti və ya səlahiyyətli idarəetmə hüququ yükverənə məxsus olmayan əmlak;

Qiymətli kağızlar;•

• Girov qoyulmuş əmlak;

Saxlanma müddəti ərzində keyfiyyət və• kəmiyyət xüsusiyyətlərinin qorunub saxlanması mümkün olmayan əmlak;

• Barəsində mülki iddia üzrə icraatı başa çatmayan əmlak;

İcarə və ya• kirayədə olan əmlak;

Azərbaycan Respublikasının mövcud• qanunvericiliyinə əsasən, üzərinə ödəniş yönəldilməsi mumkün olmayan əmlak.

4.2. Mövcud qanunvericiliyə əsasən həbs edilmiş və ya üzərinə ödəniş yönəldilmiş əmlak, Azərbaycan Respublikasının normativ-hüquqi aktlarında nəzərdə tutulan hallarda qoşa və ya adi anbar şəhadətnaməsi ilə saxlanmaq üçün götürülən mal

kimi qəbul edilə bilər.

4.3. Anbar şəhadətnamələrini verən mal anbarı anbar şəhadətnamələrinin verilməsi və silinməsi prosedurasını əks etdirən mal anbarı reqlamentini bu Əsasnamənin tələblərinə əməl etməklə təsdiq etməlidir. Mal anbarı reqlamenti və ona edilən bütün dəyişikliklər barədə mal anbarı QKDK-ya 10 gün müddətində məlumat verməlidir.

Mal anbarı mal saxlayanların tələbi ilə mal anbarı reqlamentini tanış olmaq üçün onlara təqdim etməlidir. Qanunvericilikdən birbaşa irəli gələn dəyişikliklər istisna olmaqla, anbar tərəfindən anbar şəhadətnaməsinin dövriyyə müddəti ərzində reqlamentə edilən dəyişikliklər, konkret mal sahibinə və onun saxlanmaq üçün verdiyi mala münasibətdə bu şəhadətnamənin fəaliyyət müddəti başa çatana qədər tətbiq edilmir.

4.4. Qoşa və ya adi anbar şəhadətnaməsi, mal anbara qəbul edildiyi gün mal anbarı tərəfindən mal sahibinə verilir. Mal anbarı mal sahibinin tələbi ilə bütövlükdə mala və ya onun hər hansı bir hissəsinə ayrıca anbar şəhadətnaməsi verməyə borcludur.

Malın kəmiyyət xüsusiyyətləri standartlara, texniki şərtlərə, keyfiyyət şəhadətnaməsinə, malın keyfiyyət xüsusiyyətinin razılaşdırılmış protokoluna və etalon nümunələrə uyğun anbar şəhadətnaməsinə yazılır. Mal saxlanmaq üçün qəbul edilən zaman ekspert qiymətləndirilməsi aparılırsa, şəhadətnamədə bu barədə müvafiq qeyd edilir.

Öz xüsusiyyətlərinə görə bir neçə müxtəlif mal növü anbara qəbul edilərkən onların hər biri üzrə ayrı-ayrılıqda anbar şəhadətnaməsi verilir.

V. Mal anbarının anbar şəhadətnaməsinin reyestri

5.1. Mal anbarı anbar şəhadətnamələrinin reyestrini aparmalıdır.

5.2. Anbar şəhadətnaməsinin reyestrində aşağıdakı qeydlər aparılmalıdır:

Verilən şəhadətnamənin sıra nömrəsi və anbar• şəhadətnaməsinin anbar şəhadətnaməsi reyestri üzrə nömrəsi;

Anbar• şəhadətnaməsi blankının seriya nömrəsi;

Anbar şəhadətnaməsinin• verilmə tarixi;

Verilən anbar şəhadətnaməsinin növü – qoşa və ya• adi;

Saxlanmaq üçün qəbul edilən malın xüsusiyyətləri (anbar• şəhadətnaməsində

göstərilən formada);

Malın saxlanmaq üçün qəbul• edildiyi hüquqi və ya fiziki şəxsin tam adı və ünvanı;

Verilmiş• anbar şəhadətnaməsinin bütün digər rekvizitləri.

Verilmiş hər bir anbar şəhadətnaməsi üzrə reyestrdə ayrıca qeydlər aparılır. Bütün qeydlər, tarixi göstərilməklə və qeyd aparmağa səlahiyyəti olan vəzifəli şəxsin imzası ilə təsdiq edilməklə həyata keçirilməlidir.

Qoşa və ya adi anbar şəhadətnaməsi, həmçinin əvvəl verilmiş qoşa anbar şəhadətnaməsinin bir hissəsini təşkil edən anbar şəhadətnaməsi silindiyi zaman, mal sahibinə qaytarıldığına görə anbar şəhadətnamələri reyestrində, silinməsinin tarixi göstərilməklə müvafiq qeyd aparılır.

Girov şəhadətnaməsi sahibinin tələbi ilə mal satıldıqda, satışın tarixi göstərilməklə, malın satılması və qoşa anbar şəhadətnaməsinin əlaqədar hissəsinin silinməsi haqqında anbar şəhadətnaməsi reyestrində qeyd aparılır.

Saxlanma müddəti başa çatmış malların anbar şəhadətnamələri mal anbarına təqdim edilmədikdə və saxlanan mal geri tələb edilmədikdə, anbar şəhadətnaməsi reyestrində bu barədə qeyd aparılır.

Saxlanma yeri və ya digər şərtlər dəyişildikdə, həmçinin anbar şəhadətnaməsinin zəruri rekvizitlərində dəyişikliklər edildikdə, anbar şəhadətnaməsi reyestrində bu haqda müvafiq qeyd aparılır.

Anbar şəhadətnaməsi reyestrinə anbar tərəfindən verilmiş anbar şəhadətnamələri ilə əlaqədar digər məlumatlar da daxil edilə bilər.

Mal anbarı, yalnız QKDK-nın, mal anbarı şəhadətnaməsi sahibinin və ya onu saxlayan şəxsin tələbi ilə mal anbarı reyestrində olan məlumatlar və onlara məxsus qiymətli kağızlar haqqında məlumat verməlidir.

Mal anbarı anbar şəhadətnaməsinin reyestrinin aparılması üçün xüsusi kitab açır. Onun səhifələri nömrələnir, tikilir və QKDK-nın möhürü ilə təsdiqlənir.

Mal anbarı anbar şəhadətnaməsinin reyestrində olan məlumatları özündə əks etdirən rüblük hesabatı növbəti ayın 10-dan gec olmayaraq QKDK-ya təqdim edir. Hesabatda həmçinin verilmiş, silinmiş, korlanmış, zədələnmiş, itirilmiş qoşa anbar

şəhadətnamələri, onun hissələri və adi anbar şəhadətnaməsi haqqında məlumatlar əks olunmalıdır.

VI. Mal anbarı tərəfindən anbar şəhadətnaməsi sahiblərinə malın verilməsi.

6.1. Anbar şəhadətnaməsinin sahibi malı anbardan geri almaq üçün yazılı ərizə ilə mal anbarına müraciət etməlidir.

Mal anbardan, adi anbar şəhadətnaməsi sahibinin ərizəsi ilə həmin şəhadətnamənin təqdim edilməsi müqabilində verilir. Mal anbardan, qoşa anbar şəhadətnaməsi sahibinin ərizəsi ilə hər iki şəhadətnamənin – anbar və girov şəhadətnamələrinin təqdim edilməsi müqabilində verilir. Mal anbardan geri verildiyi zaman müvafiq şəhadətnamələr anbara təhvil verilir və silinir.

Malı geri almaq üçün girov şəhadətnaməsinin sahibi gəlmədikdə və ya məlum olmadıqda, anbar şəhadətnaməsinin sahibi girov şəhadətnaməsi sahibi üçün nəzərdə tutulan bütün məbləği qoşa anbar şəhadətnaməsini verən mal anbarına ödəməklə malı almaq hüququna malikdir.

Mal anbardan çıxarıldığı zaman mal anbarı və şəhadətnamənin sahibi malın miqdarının yoxlanılması məqsədi ilə ona baxış keçirilməsini və (və ya) müstəqil ekspert tərəfindən keyfiyyət xüsusiyyətinin qiymətləndirilməsini tələb etmək hüququna malikdirlər.

6.2. Mal, anbar şəhadətnaməsi sahibinə geri qaytarıldıqda və malın kəmiyyət və keyfiyyətinə heç bir etiraz edilmədikdə mal anbarı qoşa və adi anbar şəhadətnamələrinin silinməsini həyata keçirir.

Girov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsinin mal anbarı tərəfindən silinməsi, anbar şəhadətnaməsi sahibi girov şəhadətnaməsi üzrə borcunu ödəmiş olduğu hallarda, mal ona verildiyi zaman həyata keçirilir.

Qoşa anbar şəhadətnaməsi üzrə malın verilməsi, habelə qoşa anbar şəhadətnaməsi və onun hər bir hissəsinin silinməsi yalnız fasiləsiz indossamentlərin olduğu hallarda mal anbarı tərəfindən həyata keçirilir.

Silinmiş qoşa və adi anbar şəhadətnamələrinin üzərinə “silinmişdir” ifadəsi yazılmaqla onlar hüquqi qüvvəsini itirir və 5 il müddətində mal anbarının arxivində saxlanılır.

VII. Qoşa və adi anbar şəhadətnaməsi sahiblərinin hüquqları

7.1. Qoşa anbar şəhadətnaməsinin sahibi anbarda saxlanılan mal üzərində tam sərəncam vermək hüququna malikdir.

Girov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsinin sahibi anbarda saxlanılan mal üzərində bu Əsasnamə ilə müəyyən edilən şərtlər daxilində sərəncam verir və malı ambardan, girov şəhadətnaməsinə əsasən verilən borcu ödəməsi və ya girovla təminat verilən pul məbləğinin tamamilə anbara ödəməsi şərtilə götürmək hüququna malikdir.

Girov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsi üzrə hüquqların başqasına verilməsi üçün muvafiq girov şəhadətnaməsinin sahibinin razılığı tələb edilmir. Qirov şəhadətnaməsi anbar şəhadətnaməsindən ayrıldığı zaman girov şəhadətnaməsində göstərilən girovla təminat verilən öhdəlik üzrə borcun məbləği barədə qeyd qoşa anbar şəhadətnaməsi sahibi tərəfindən anbar şəhadətnaməsində aparılıb imzalanmalıdır. Bu qeyd olmadıqda girov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsi ilə əməliyyatlarının aparılmasına yol verilmir.

Girov şəhadətnaməsinin sahibi borc almış şəxsdən borc məbləğinin və faizlərin bütövlüklə qaytarılmasını tələb etmək, eləcə də girov şəhadətnaməsində göstərilən mallar üzərində bu məbləğ həcmində girov hüququna malikdir.

Girov şəhadətnaməsinin sahibi anbar şəhadətnaməsinin sahibi tərəfindən, anbardan anbar şəhadətnaməsinin müqabilində aldığı mala görə ödədiyi pul məbləğini (girov şəhadətnaməsinə əsasən verilən borcun məbləği və ya girovla təminat verilən pul məbləği) almaq hüququna malikdir.

7.2. Girovla təminat verilən öhdəlik, borclu tərəfindən lazımi qaydada yerinə yetirildikdə girova xitam verilməsi qaydası girov qanunvericiliyinə uyğun həyata keçirilir.
Girovla təminat verilən öhdəlik vaxtında icra edilmədikdə və ya lazımi qaydada yerinə yetirilmədikdə girovsaxlayan ödənişin yönəldilməsi barədə bildirişi girovqoyana təqdim edir və bundan sonra girov qoyulmuş əmlaka ödənişin yönəldilmə prosedurasına başlayır.
Girovsaxlayan bildirişi verdiyi vaxtdan sonra 7 gün ərzində ödənişin yönəldilməsi haqqında bildirişin əlavə dövlət qeydiyyatına alınması üçün əlavə qeydiyyət ərizəni QKDK-ya verir. Əlavə qeydiyyatın aparılması, bu ərizədə əks etdirilən məlumatlar, habelə əlavə qeydiyyatın aparılma prosedurası "Bütün növ qiymətli kağızlarla girovun və qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması" Qaydalarına əsasən həyata keçirilir. Bundan sonra girovsaxlayan əlavə qeydiyyat haqqında sənədə və həmin şəhadətnaməyə əsasən girov qoyulan malın satılması və ya öz adına keçirilməsi tələbi ilə girov şəhadətnaməsini mal anbarına təqdim edir.

Ödənişin yönəldilmə prosesinə qədər anbar şəhadətnaməsinin sahibi tərəfindən bu Əsasnamənin 7.1-ci bəndində göstərilən məbləği ödəməklə anbardan mal geri götürülərsə, onun tərəfindən mal anbarına ödənilən məbləğ girovsaxlayana verilir. Bu halda girov şəhadətnaməsi mal anbarına verilir və silinir. Hər iki halda mal anbarı QKDK-ya yazılı məlumat təqdim edir.

Ödəniş yönəldilməsi haqqında bildiriş girovqoyana təqdim edildikdən ən azı 30 gün keçdikdən sonra girovsaxlayanın girov qoyulmuş əmlakı satmaq və satışdan əldə edilmiş hasilatın hesabına təminatlı borcu ödəmək hüququ vardır.

7.3. Adi anbar şəhadətnaməsinin sahibi adi anbar şəhadətnaməsinə əsasən saxlanılan mallar üzərində sərəncam vermək hüququna malikdir. Adi anbar şəhadətnaməsi ilə təsdiq edilən hüquqların başqasına verilməsi həmin şəhadətnamənin yeni sahibinə təqdim edilməsi yolu ilə həyata keçirilir.

Adi anbar şəhadətnaməsi sahibinin mal anbarında saxlanılan mallar üzərində sərəncam vermək hüququ yalnız onun adi anbar şəhadətnaməsinə sərəncam verməsi ilə həyata keçirilir. Bu zaman adi anbar şəhadətnaməsinin ötürülməsi malın yeni sahibinə verilməsi hesab olunur.

Adi anbar şəhadətnaməsinin girov qoyulması və bu girovla bağlı digər məsələlər "Girov haqqında" Azərbaycan Respublikasının Qanuna və QKDK-nın "Bütün növ qiymətli kağızlarla girovun və qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması" Qaydalarına uyğun olaraq həyata keçirilir.

VIII. Qoşa anbar şəhadətnaməsinin ötürülməsi

8.1. Qoşa anbar şəhadətnaməsi üzrə hüquqlar, anbar şəhadətnaməsi blankının arxa tərəfində edilən indossamentlər vasitəsilə ötürülür. Anbar şəhadətnaməsində fasiləsiz ardıcıl indossamentlər təsbit edilən hüququn başqasına keçməsini sübut edir.

Qoşa anbar şəhadətnaməsini verən mal anbarı və qoşa anbar şəhadətnaməsini və ya onun tərkib hissəsi olan anbar şəhadətnaməsini indossament edən bütün şəxslər həmin şəhadətnamə üzrə hüquqların həyata keçirilməsinə görə solidar məsuliyyət daşıyırlar.

Qoşa anbar şəhadətnaməsi və ya qirov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsinin sahibi həmin qiymətli kağızı indossament edən şəxsə qarşı qiymətli kağızla təsdiq edilən öhdəliklərin yerinə yetirilməsi tələbini və mal anbarına təqdim edilmiş malın verilməsi haqqında tələbin yerinə yetirilməməsinə görə dəyən zərərlərin, (bu cür tələbin yerinə yetirilməməsi faktı köçürmə və sadə veksellər üçün müəyyən edilmiş qaydada təsdiq edildikdən sonra) ödənilməsi tələblərini irəli sürmək hüququna malikdir.

Girov şəhadətnaməsini imzalayan şəxs girov şəhadətnaməsinin sahibi qarşısında girovla təminat verilən öhdəliklərin yerinə yetirilməməsinə görə məsuliyyət daşıyır.

8.2. Anbar şəhadətnaməsində yazılan indossamentdə aşağıdakılar göstərilməlidir:

İndossantın, əgər o hüquqi şəxsdirsə,• hüquqi təşkilat forması göstərilməklə, tam adı;

İndossantın adından• imza səlahiyyətinə malik olan şəxsin, indossantın möhürü ilə təsdiqlənmiş şəxsi imzası;

İndossamentin yazılma tarixi.

Qaralanmış indossament etibarsızdır. İndossament heç nə ilə şərtləndirilmir, onu məhdudlaşdıran istənilən şərtlər etibarsızdır.

Anbar şəhadətnaməsində göstərilən malın və ya girov şəhadətnaməsi ilə təminat verilən borcun bir hissəsinin ötürülməsini nəzərdə tutan indossament etibarsızdır.

İndossamentin mətninə hər hansı bir şərt, qeyd və əlavə edilməsinə yol verilmir. Növbəti indossament verildiyi zaman, əvvəlki indossamentlərin, eləcə də anbar və ya girov şəhadətnamələrinin mətnlərində dəyişiklik edilməsinə yol verilmir.

İndossament, bu hüququn indossanta verilməməsi şərtilə, yalnız qiymətli kağızla təsdiq olunan hüququn yerinə yetirilməsi tapşırığı ilə məhdudlaşdırıla bilər.

Bu Əsasnamənin 8.2-ci bəndi ilə müəyyən edilən qaydalara əməl edilmədən həyata keçirilən indossamentlər etibarsız sayılır.

8.3. Borc yarandığı hallarında və girov şəhadətnaməsi qoşa anbar şəhadətnaməsindən ayrılan zaman qoşa anbar şəhadətnamənin sahibinin vəzifələri aşağıdakilardır:

• Müəyyən edilmiş məbləğin girov şəhadətnaməsini saxlayan şəxsə (indossata) və ya onun təyin etdiyi şəxsə şərtsiz ödənilməsi barədə qirov şəhadətnaməsində qeydlər yazmaq;

Girov şəhadətnaməsini QKDK-da dövlət qeydiyyatından• keçirtmək.

Girov şəhadətnaməsi verildiyi zaman onun üzərində müvafiq rekvizitlərlə bərabər borcun məbləği və şərtləri (ödəniş müddəti, faizləri, ödənişlə əlaqədar tələbin təqdim ediləcəyi yer) də göstərilir. Girov şəhadətnaməsi tərtib edildiyi zaman “Girov haqqında” Azərbaycan Respublikasının Qanuna, QKDK-nın “Bütün növ qiymətli kağızlarla girovun və qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması” Qaydalarına və bu

Əsasnamənin tələblərinə əməl edilməzsə, həmin girov şəhadətnaməsi etibarsız, onun ayrılması isə qeyri-qanuni hesab edilir. Girov şəhadətnaməsində ayrılan vaxt onda aparılan qeydlər anbar şəhadətnaməsində də eynilə təkrarlanmalıdır.

## IX. Anbar şəhadətnaməsilə aparılan əməliyyatlar

9.1. Qoşa və adi anbar şəhadətnaməsi, eləcə də bir–birindən ayrılıqda anbar və girov şəhadətnaməsinin sahibləri onlar üzərində sərəncam vermək və əqdlər bağlamaq səlahiyyətinə malikdirlər.

Qoşa anbar şəhadətnaməsi, anbar və girov şəhadətnamələri, eləcə də adi anbar şəhadətnaməsi qiymətli kağızlarla alqı-satqı əməliyyatlarının, o cümlədən qiymətli kağızlar bazarında ticarətin təşkilatçıları vasitəsilə həyata keçirilən əməliyyatların obyekti ola bilər.

## X. Anbar şəhadətnaməsinin itirilməsi və körlanmasının nəticələri

10.1. Adi anbar şəhadətnaməsi, qoşa anbar şəhadətnaməsi və ya onun hər hansı bir hissəsi itdikdə, şəhadətnaməni itirən şəxs dərhal mal anbarına yazılı şəkildə bu barədə məlumat verməlidir, və mal anbarı tərəfindən anbar şəhadətnaməsi reyestrində müvafiq qeyd aparılmalıdır.
Şəhadətnamənin nüsxəsi itdikdə yeni şəhadətnamə verilmir. İtmiş şəhadətnamə üzrə hüququn bərpa edilməsi, eləcə də bu hüquqların həyata keçirilməsi prossesual qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerinə yetirilir. Anbar şəhadətnaməsi itmiş malın saxlanmasını, əgər bu onun keyfiyyət xüsusiyyətinin itməsinə səbəb olmazsa, mal anbarı qeyri-müəyyən vaxta qədər uzada bilər.

İtmiş şəhadətnamə üzrə hüquqların bərpa edilməsi məhkəmənin qərarına əsasən həyata keçirilir. Saxlanma müddətinin uzadılmasına görə mal anbarının çəkdiyi xərclər itmiş anbar şəhadətnaməsi üzrə hüquqlarını bərpa edən şəxs tərəfindən ödənilir.

Anbar şəhadətnaməsinin blankı zədələndikdə, mal anbarı onun dəyişdirilməsini tələb edən şəxsin hesabına zəruri rekvizitləri dəyişdirmədən yeni anbar şəhadətnaməsi vermək hüququna malikdir. Körlanmış və ya zədələnmiş blank dövriyyədən çıxarılır, silinir və bu barədə anbar şəhadətnaməsi reyestrində qeydiyyat aparılır.

## XI . Anbar şəhadətnamələrinin qeydiyyatı və dövlət reyestrinə daxil edilməsi

11.1. Azərbaycan Respublikasında anbar şəhadətnamələrinin buraxılması yalnız QKDK-da uçota alınmış mal anbarları tərəfindən həyata keçirilə bilər.

11.2. Uçota alınmaq üçün mal anbarı QKDK-ya aşağıdakı sənədləri təqdim etməlidir:

- hüquqi şəxsin adını, təşkilati-hüquqi formasını və hüquqi ünvanını əks etdirən ərizə;

- təsis sənədlərinin surəti;

- müvafiq lisenziyanın surəti (kömrük anbarları üçün);

- mal anbarının reqlamenti.

11.3. Sənədlər tam təqdim edildiyi gündən 10 iş günü ərzində QKDK tərəfindən baxılır, sənədlərdə çatışmamazlıq olmadıqda, mal anbarları uçota alınır və bu barədə müvafiq sənəd verilir.

11.4. Anbar şəhadətnamələrin qeydiyyata alınması və dövlət reyestrinə daxil edilməsi QKDK tərəfindən həyata keçirilir.
11.5. Anbar şəhadətnaməsinin sahibi anbar şəhadətnaməsini qeydiyyatdan keçirmək və dövlət reyestrinə daxil etmək üçün, aşağıdakı sənədləri QKDK-ya təqdim etməlidir:
- hüquqi şəxsin tam adını, təşkilati-hüquqi formasını və hüquqi ünvanını, fiziki şəxsin isə şəxsiyyətini təstiq edən sənədin məlumatlarını əks etdirən ərizə;

- mal üzərində xüsusi mülkiyyət, tam təsərrufatçılıq səlahiyyəti və ya səlahiyyətli idarəetmə hüququ təsdiq edən sənəd;

- müəyyən edilmiş qaydada doldurulmuş və imzalanmış anbar şəhadətnaməsi.

11.6. Təqdim olunmuş sənədlərə 5 iş günü müddətində baxılır və çatışmamazlıqlar və ya imtina üçün əsas olmadıqda, anbar şəhadətnaməsi dövlət reyestrində qeydiyyata alınır.

11.7. Anbar şəhadətnamənin üz tərəfinə QKDK-nın ştampı vurulur və müvafiq kitabda qeyd aparılır.

11.8. Yalnız dövlət reyestrində qeydiyyata alındıqdan sonra anbar şəhadətnamələri hüquqi qüvvəyə minir. Dövlət qeydiyyatından keçməyən və reyestrə daxil edilməyən ambar şəhadətnamələri hüquqi qüvvəyə malik deyil.

11.9. Ərizəçi təqdim etdiyi sənədlərdə olan məlumatın tamlığı və düzqünlüyü üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun məsuliyyət daşıyır.

11.10. Anbar şəhadətnamələrinin qeydiyyata alınmasından aşağıdaki hallarda imtina edilir:

- ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar

aşkar edildikdə;

- təqdim olunmuş sənədlər və onlarda olan məlumatların məzmunu müvafiq qanunvericiliyin tələblərinə uyğun olmadıqda;

- qanunvericiliklə nəzərdə tutulan diqər hallarda.

11.11. Ərizəçi qeydiyyata alınmaqdan imtinaya əsas olmuş halları aradan qaldırdıqdan sonra müvafiq qaydada QKDK-ya müraciət etmək və ya imtina barədə qərarla razılaşmadıqda məhkəməyə müraciət etmək hüququna malikdir.

## XII. Məsuliyyət

Bu Əsasnamənin müddəalarını pozan şəxslər qanunvericiliyə uyğun olaraq müvafiq məsuliyyət daşıyırlar.

## XIII. Əsasnamənin qüvvəyə minməsi

Bu Əsasnamə imzalandığı gündən qüvvəyə minir.

**Садя анбар шяцадятнамяси**

**Тягдим едяня**

Нцсхялярин сайы ____________________ № _________________

Мал анбары:______________________________________________________________________________

(ады, цнваны, банк реквизитляри )

___________________________________________________________ тягдим едяня ашаьыдакы малларын верилмяси ющдя

(мал сахладыьы йер)

| МАЛЫН АДЫ | ЮЛЧЦ ВАЩИДИ | САЙЫ | КЕЙФИЙЙЯТ ХЦСУСИЙЯТИ |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |

Сахлама мцддяти: __________________________________ Сахлама щаггынын мябляьи юдянилиб ____________________

( эцн, ай, ил

____________________________________________________________________________________________

(мябляь: рягямля вя сюзля)

Мал эюстярилян мцддятдян эеж эютцрулярся щяр эцня ялавя юдянилян мябляь. ______________________________

______________________________________________________________ Верилмишдир: ____________________________________________________________________

(рягямля вя сюзля) ( эцн, ай, ил ) (ш

Хцсуси гейд: ___________________________________________________________________________________

Мцдцр: ____________________________________________________________________

М . Й. __________________

(имза)

С

Сыгортажи:______________

Сыгорта мябляьи: _______

Сыгорта полиси:________

**«TƏSDİQ EDİLMİŞDİR»**

Azərbaycan Respublikasının Prezidenti

yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi

Əmr 088

«30» iyul 2000-cı il

Sədr _______________ H. Babayev

**Azərbaycan Respublikasında adi və qoşa anbar şəhadətnamələrinin dövriyyəsi haqqında**
**ƏS A S N A M Ə**

I. Ümumi müddəalar

1.1 Bu Əsasnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının "Qiymətli kağızlar haqqında" Qanununa, Azərbaycan Respublikasının "Girov Haqqında" Qanuna və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"-yə müvafiq olaraq hazırlanmışdır.

1.2 Bu Əsasnamə adi anbar şəhadətnaməsi, qoşa anbar şəhadətnaməsi və onun tərkib hissələri olan – anbar və girov şəhadətnamələrinin verilməsi, dövriyyəsi, ödənilməsi və bununla əlaqədar digər məsələləri tənzimləyir.

1.3 Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi və fiziki şəxslər anbar şəhadətnamələrindən istifadə edə bilərlər.

1.4 Bu Əsasnamənin məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

Mal anbarı – malların saxlanması, qorunması və bununla əlaqədar xidmətlər üzrə fəaliyyətləri həyata keçirən şəxsdir. Anbar şəhadətnaməsindən istifadə edən mal anbarları Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində (bundan sonra - QKDK) uçota durmalıdırlar.

Mal anbarının reqlamenti – malların anbarda saxlanması üçün qəbul edilməsi, saxlanması və qaytarılma qaydalarını, habelə saxlanmaq üçün qəbul edilmiş mallara qörə mal anbar şəhadətnamələri və digər anbar sənədlərinin verilmə prosedurasını əks etdirən sənəddir.

Anbar şəhadətnaməsi – malın saxlanması uçun qəbul edildiyini təstiqləyən və mal anbarı tərəfindən malın sahibinə verilən qiymətli kağızdır. Anbar şəhadətnaməsi qoşa və adi ola bilər.

Qoşa anbar şəhadətnaməsi - iki hissədən – biri digərindən ayrıla bilən anbar

şəhadətnaməsi və girov şəhadətnaməsindən (varrantdan) ibarətdir. Qoşa anbar şəhadətnaməsi və onun hər bir hissəsi orderli qiymətli kağız hesab olunur.

Adi anbar şəhadətnaməsi - malın saxlanması uçun qəbul edildiyini təstiqləyən və mal anbarı tərəfindən verilən təqdim edənə qiymətli kağızdır.

Anbar şəhadətnamələrinin reyestri – mal anbarı tərəfindən verilən anbar şəhadətnamələrinin uçotunu özündə əks etdirən qeydiyyat sistemidir.

Malların reyestri – saxlanmaq üçün qəbul edilmiş malların hərəkəti və cari vəziyyətinin uçotunu özündə əks etdirən qeydiyyat sistemidir.

II. Qoşa və adi anbar şəhadətnamələri

2.1. Qoşa anbar şəhadətnaməsinin hər bir hissəsində aşağıdakılar eynilə göstərilməlidir:

2.1.1 Yükü saxlamaq üçün qəbul edən və anbar şəhadətnaməsi verən mal anbarının tam adı, ünvanı, və bank rekvizitləri, eləcə də mal saxlandığı yer;

2.1.2 Anbar şəhadətnamələrinin reyestri üzrə anbar şəhadətnaməsinin cari nömrəsi;

2.1.3 Malı saxlamağa verən hüquqi və ya fiziki şəxsin tam adı, ünvanı (yaşayış yeri); hüquqi şəxslərin bank rekvizitləri, fiziki şəxsin şəxsiyyətini təstiq edən sənədin məlumatları;

2.1.4 Saxlamaq üçün qəbul edilmiş malın adı və ölçu miqdarı (ədəd və (və ya) yük yeri üzrə sayı və (və ya) ölçüsü (çəki, həcm)) lazım olduqda isə – saxlamaq üçün verilmiş malın keyfiyyət xüsusiyyəti;

2.1.5 Malın saxlanma müddəti: əgər malın saxlanma müddəti konkret bir müddət təyin edilməmişdirsə onda bu müddət mal anbarının fəaliyyət müddətindən artıq olmamalıdır;
2.1.6 Saxlama haqqının məbləği, yaxud saxlama haqqının hesablanması üçün əsas götürülən tariflər;

2.1.7 Maraqlı şəxslərin mallar ilə rəftar barəsində qəbul etdikləri xüsusi qeydlər;

2.1.8 Əmtəə sənədləri nüsxələrinin sayı;

2.1.9 Anbar şəhadətnaməsinin verilmə tarixi.

Qoşa anbar şəhadətnaməsinin hər iki hissəsi mal anbarının möhürü ilə təsdiq olunmaqla eyni səlahiyyətli şəxs tərəfindən imzalanmalıdır.

Şəhadətnamə verildiyi zaman onun üz və arxa tərəfində, bu Əsasnamədə göstərilən qeyd və yazılar istisna olmaqla, edilən bütün digər yazılar, qeydlər, düzəlişlər və əlavələr etibarsız sayılır.

Bu Əsasnamənin 2.1 bəndində göstərilən zəruri rekvizitlərin tələblərinə cavab verməyən sənədlər qoşa anbar şəhadətnaməsi hesab olunmur.

2.2. Adi anbar şəhadətnaməsi, bu Əsasnamənin 2.1-ci bəndinin 2.1.1, .2.1.2 və 2.1.4-2.1.9 yarımbəndlərində göstərilən məlumatları, habelə onun təqdim edənə olması haqqında qeydi özündə əks etdirməlidir.

Bu bəndin şərtlərinə cavab verməyən sənədlər adi anbar şəhadətnaməsi hesab edilmir.

Adi anbar şəhadətnaməsini saxlayan şəxs onun sahibi hesab edilir.

2.3. Qoşa və adi anbar şəhadətnamələrinin blankları QKDK-dan xususi razılıq (lisenziya) almış mətbəə tərəfindən çap olunur. Qoşa və adi anbar şəhadətnamələrinin blanklarının vahid nümunəvi forması QKDK tərəfindən müəyyən edilir (Əlavə № 1). Blankların seriyasi və nömrəsi anbar şəhadətnaməsinin hər iki hissəsində eyni olmalıdır. Qoşa anbar şəhadətnaməsi blankında anbar şəhadətnamələrinin ötürülməsi haqqında qeydlər üçün ayrıca qrafa, eləcə də girov şəhadətnaməsi üzrə girovla təminat verilən borcun məbləği və ödənilmə müddəti haqqında qeydlərin aparılması üçün yer olmalıdır.

2.4. Malın verilməsi və saxlanması faktı anbar tərəfindən verilən qoşa və ya adi anbar şəhadətnaməsi ilə təsdiq edilməlidir. Bu zaman anbar saxlancı haqqında yazılı formada müqavilənin tərtib olunması tələb olunmur.

2.5. Anbar şəhadətnaməsi üzrə saxlanmaq üçün verilən malın özgəninkiləşdirilməsi, yalnız aidiyyatı anbar şəhadətnaməsi vasitəsilə həyata keçirilə bilər.

2.6. Mal anbarı qoşa anbar şəhadətnaməsi üzrə saxlanmaq üçün qəbul etdiyi malları sığorta edə bilər. Bu halda qoşa anbar şəhadətnaməsinin hər bir hissəsində sığorta müqaviləsinə əsasən sığortaçı haqqında qeyd aparılmalıdır.

III. Ambar şəhadətnaməsi ilə saxlanmaq üçün qəbul edilmiş malın girovu

3.1. Qoşa və adi anbar şəhadətnaməsi üzrə saxlanmaq üçün qəbul edilən malların girovu, yalnız girov şəhadətnaməsinin ayrılması və verilməsi yolu ilə və ya adi anbar şəhadətnaməsinin bu Əsasnamədə nəzərdə tutulan qaydada girovsaxlayana verilməsi yolu ilə həyata keçirilməlidir. Girov, mal anbarı və ya üçüncü şəxsin

xeyrinə qoyula bilər.

3.2. Girov hüququ, girov şəhadətnaməsi QKDK-da dövlət qeydiyyatından keçdikdən sonra yaranır. Bu hüquq həyata keçirildiyi zaman girov qoyulan əmlakın ödənişə yönəldilməsi və qanunvericilikdən nəzərdə tutulan diqər əməliyyatlar bu Əsasnamə ilə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, “Girov haqqında” Azərbaycan Respublikası Qanunda və “Bütün növ qiymətli kəğızlarla girovun və qiymətli kəğızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması” Qaydalarında nəzərdə tutulmuş qaydada əlavə dövlət qeydiyyatından keçdikdən sonra həyata keçirilir.

IV. Mal anbarı tərəfindən anbar şəhadətnamələrinin verilməsi

4.1. Aşağıda göstərilmiş mallar saxlanmaq üçün anbar tərəfindən qəbul edildiyi zaman həmin mallara qoşa və adi anbar şəhadətnaməsi verilə bilməz:

Xüsusi• mülkiyyət, tam təsərrüfatçılıq səlahiyyəti və ya səlahiyyətli idarəetmə hüququ yükverənə məxsus olmayan əmlak;

Qiymətli kağızlar;•

• Girov qoyulmuş əmlak;

Saxlanma müddəti ərzində keyfiyyət və• kəmiyyət xüsusiyyətlərinin qorunub saxlanması mümkün olmayan əmlak;

• Barəsində mülki iddia üzrə icraatı başa çatmayan əmlak;

İcarə və ya• kirayədə olan əmlak;

Azərbaycan Respublikasının mövcud• qanunvericiliyinə əsasən, üzərinə ödəniş yönəldilməsi mumkün olmayan əmlak.

4.2. Mövcud qanunvericiliyə əsasən həbs edilmiş və ya üzərinə ödəniş yönəldilmiş əmlak, Azərbaycan Respublikasının normativ-hüquqi aktlarında nəzərdə tutulan hallarda qoşa və ya adi anbar şəhadətnaməsi ilə saxlanmaq üçün götürülən mal kimi qəbul edilə bilər.

4.3. Anbar şəhadətnamələrini verən mal anbarı anbar şəhadətnamələrinin verilməsi və silinməsi prosedurasını əks etdirən mal anbarı reqlamentini bu Əsasnamənin tələblərinə əməl etməklə təsdiq etməlidir. Mal anbarı reqlamenti və ona edilən bütün dəyişikliklər barədə mal anbarı QKDK-ya 10 gün müddətində məlumat verməlidir.

Mal anbarı mal saxlayanların tələbi ilə mal anbarı reqlamentini tanış olmaq üçün onlara təqdim etməlidir. Qanunvericilikdən birbaşa irəli gələn dəyişikliklər istisna olmaqla, anbar tərəfindən anbar şəhadətnaməsinin dövriyyə müddəti ərzində reqlamentə edilən dəyişikliklər, konkret mal sahibinə və onun saxlanmaq üçün verdiyi mala münasibətdə bu şəhadətnamənin fəaliyyət müddəti başa çatana qədər tətbiq edilmir.

4.4. Qoşa və ya adi anbar şəhadətnaməsi, mal anbara qəbul edildiyi gün mal anbarı tərəfindən mal sahibinə verilir. Mal anbarı mal sahibinin tələbi ilə bütövlükdə mala və ya onun hər hansı bir hissəsinə ayrıca anbar şəhadətnaməsi verməyə borcludur.

Malın kəmiyyət xüsusiyyətləri standartlara, texniki şərtlərə, keyfiyyət şəhadətnaməsinə, malın keyfiyyət xüsusiyyətinin razılaşdırılmış protokoluna və etalon nümunələrə uyğun anbar şəhadətnaməsinə yazılır. Mal saxlanmaq üçün qəbul edilən zaman ekspert qiymətləndirilməsi aparılırsa, şəhadətnamədə bu barədə müvafiq qeyd edilir.

Öz xüsusiyyətlərinə görə bir neçə müxtəlif mal növü anbara qəbul edilərkən onların hər biri üzrə ayrı-ayrılıqda anbar şəhadətnaməsi verilir.

V. Mal anbarının anbar şəhadətnaməsinin reyestri

5.1. Mal anbarı anbar şəhadətnamələrinin reyestrini aparmalıdır.

5.2. Anbar şəhadətnaməsinin reyestrində aşağıdakı qeydlər aparılmalıdır:

Verilən şəhadətnamənin sıra nömrəsi və anbar• şəhadətnaməsinin anbar şəhadətnaməsi reyestri üzrə nömrəsi;

Anbar• şəhadətnaməsi blankının seriya nömrəsi;

Anbar şəhadətnaməsinin• verilmə tarixi;

Verilən anbar şəhadətnaməsinin növü – qoşa və ya• adi;

Saxlanmaq üçün qəbul edilən malın xüsusiyyətləri (anbar• şəhadətnaməsində göstərilən formada);

Malın saxlanmaq üçün qəbul• edildiyi hüquqi və ya fiziki şəxsin tam adı və ünvanı;

Verilmiş• anbar şəhadətnaməsinin bütün digər rekvizitləri.

Verilmiş hər bir anbar şəhadətnaməsi üzrə reyestrdə ayrıca qeydlər aparılır. Bütün qeydlər, tarixi göstərilməklə və qeyd aparmağa səlahiyyəti olan vəzifəli şəxsin imzası ilə təsdiq edilməklə həyata keçirilməlidir.

Qoşa və ya adi anbar şəhadətnaməsi, həmçinin əvvəl verilmiş qoşa anbar şəhadətnaməsinin bir hissəsini təşkil edən anbar şəhadətnaməsi silindiyi zaman, mal sahibinə qaytarıldığına görə anbar şəhadətnamələri reyestrində, silinməsinin tarixi göstərilməklə müvafiq qeyd aparılır.

Girov şəhadətnaməsi sahibinin tələbi ilə mal satıldıqda, satışın tarixi göstərilməklə, malın satılması və qoşa anbar şəhadətnaməsinin əlaqədar hissəsinin silinməsi haqqında anbar şəhadətnaməsi reyestrində qeyd aparılır.

Saxlanma müddəti başa çatmış malların anbar şəhadətnamələri mal anbarına təqdim edilmədikdə və saxlanan mal geri tələb edilmədikdə, anbar şəhadətnaməsi reyestrində bu barədə qeyd aparılır.

Saxlanma yeri və ya digər şərtlər dəyişildikdə, həmçinin anbar şəhadətnaməsinin zəruri rekvizitlərində dəyişikliklər edildikdə, anbar şəhadətnaməsi reyestrində bu haqda müvafiq qeyd aparılır.

Anbar şəhadətnaməsi reyestrinə anbar tərəfindən verilmiş anbar şəhadətnamələri ilə əlaqədar digər məlumatlar da daxil edilə bilər.

Mal anbarı, yalnız QKDK-nın, mal anbarı şəhadətnaməsi sahibinin və ya onu saxlayan şəxsin tələbi ilə mal anbarı reyestrində olan məlumatlar və onlara məxsus qiymətli kağızlar haqqında məlumat verməlidir.

Mal anbarı anbar şəhadətnaməsinin reyestrinin aparılması üçün xüsusi kitab açır. Onun səhifələri nömrələnir, tikilir və QKDK-nın möhürü ilə təsdiqlənir.

Mal anbarı anbar şəhadətnaməsinin reyestrində olan məlumatları özündə əks etdirən rüblük hesabatı növbəti ayın 10-dan gec olmayaraq QKDK-ya təqdim edir. Hesabatda həmçinin verilmiş, silinmiş, körlanmış, zədələnmiş, itirilmiş qoşa anbar şəhadətnamələri, onun hissələri və adi anbar şəhadətnaməsi haqqında məlumatlar əks olunmalıdır.

VI. Mal anbarı tərəfindən anbar şəhadətnaməsi sahiblərinə malın verilməsi.

6.1. Anbar şəhadətnaməsinin sahibi malı anbardan geri almaq üçün yazılı ərizə ilə mal anbarına müraciət etməlidir.

Mal anbardan, adi anbar şəhadətnaməsi sahibinin ərizəsi ilə həmin şəhadətnamənin təqdim edilməsi müqabilində verilir. Mal anbardan, qoşa anbar şəhadətnaməsi sahibinin ərizəsi ilə hər iki şəhadətnamənin – anbar və girov şəhadətnamələrinin təqdim edilməsi müqabilində verilir. Mal anbardan geri verildiyi zaman müvafiq şəhadətnamələr anbara təhvil verilir və silinir.

Malı geri almaq üçün girov şəhadətnaməsinin sahibi gəlmədikdə və ya məlum olmadıqda, anbar şəhadətnaməsinin sahibi girov şəhadətnaməsi sahibi üçün nəzərdə tutulan bütün məbləği qoşa anbar şəhadətnaməsini verən mal anbarına ödəməklə malı almaq hüququna malikdir.

Mal anbardan çıxarıldığı zaman mal anbarı və şəhadətnamənin sahibi malın miqdarının yoxlanılması məqsədi ilə ona baxış keçirilməsini və (və ya) müstəqil ekspert tərəfindən keyfiyyət xüsusiyyətinin qiymətləndirilməsini tələb etmək hüququna malikdirlər.

6.2. Mal, anbar şəhadətnaməsi sahibinə geri qaytarıldıqda və malın kəmiyyət və keyfiyyətinə heç bir etiraz edilmədikdə mal anbarı qoşa və adi anbar şəhadətnamələrinin silinməsini həyata keçirir.

Girov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsinin mal anbarı tərəfindən silinməsi, anbar şəhadətnaməsi sahibi girov şəhadətnaməsi üzrə borcunu ödəmiş olduğu hallarda, mal ona verildiyi zaman həyata keçirilir.

Qoşa anbar şəhadətnaməsi üzrə malın verilməsi, habelə qoşa anbar şəhadətnaməsi və onun hər bir hissəsinin silinməsi yalnız fasiləsiz indossamentlərin olduğu hallarda mal anbarı tərəfindən həyata keçirilir.

Silinmiş qoşa və adi anbar şəhadətnamələrinin üzərinə "silinmişdir" ifadəsi yazılmaqla onlar hüquqi qüvvəsini itirir və 5 il müddətində mal anbarının arxivində saxlanılır.

VII. Qoşa və adi anbar şəhadətnaməsi sahiblərinin hüquqları

7.1. Qoşa anbar şəhadətnaməsinin sahibi anbarda saxlanılan mal üzərində tam sərəncam vermək hüququna malikdir.

Girov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsinin sahibi anbarda saxlanılan mal üzərində bu Əsasnamə ilə müəyyən edilən şərtlər daxilində sərəncam verir və malı ambardan, girov şəhadətnaməsinə əsasən verilən borcu ödəməsi və ya girovla təminat verilən pul məbləğinin tamamilə anbara ödəməsi şərtilə götürmək hüququna malikdir.

Girov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsi üzrə hüquqların başqasına

verilməsi üçün muvafiq girov şəhadətnaməsinin sahibinin razılığı tələb edilmir. Qirov şəhadətnaməsi anbar şəhadətnaməsindən ayrıldığı zaman girov şəhadətnaməsində göstərilən girovla təminat verilən öhdəlik üzrə borcun məbləği barədə qeyd qoşa anbar şəhadətnaməsi sahibi tərəfindən anbar şəhadətnaməsində aparılıb imzalanmalıdır. Bu qeyd olmadıqda girov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsi ilə əməliyyatlarının aparılmasına yol verilmir.

Girov şəhadətnaməsinin sahibi borc almış şəxsdən borc məbləğinin və faizlərin bütövlüklə qaytarılmasını tələb etmək, eləcə də girov şəhadətnaməsində göstərilən mallar üzərində bu məbləğ həcmində girov hüququna malikdir.

Girov şəhadətnaməsinin sahibi anbar şəhadətnaməsinin sahibi tərəfindən, anbardan anbar şəhadətnaməsinin müqabilində aldığı mala görə ödədiyi pul məbləğini (girov şəhadətnaməsinə əsasən verilən borcun məbləği və ya girovla təminat verilən pul məbləği) almaq hüququna malikdir.

7.2. Girovla təminat verilən öhdəlik, borclu tərəfindən lazımi qaydada yerinə yetirildikdə girova xitam verilməsi qaydası girov qanunvericiliyinə uyğun həyata keçirilir.
Girovla təminat verilən öhdəlik vaxtında icra edilmədikdə və ya lazımi qaydada yerinə yetirilmədikdə girovsaxlayan ödənişin yönəldilməsi barədə bildirişi girovqoyana təqdim edir və bundan sonra girov qoyulmuş əmlaka ödənişin yönəldilmə prosedurasına başlayır.
Girovsaxlayan bildirişi verdiyi vaxtdan sonra 7 gün ərzində ödənişin yönəldilməsi haqqında bildirişin əlavə dövlət qeydiyyatına alınması üçün əlavə qeydiyyət ərizəni QKDK-ya verir. Əlavə qeydiyyatın aparılması, bu ərizədə əks etdirilən məlumatlar, habelə əlavə qeydiyyatın aparılma prosedurası “Bütün növ qiymətli kağızlarla girovun və qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması” Qaydalarına əsasən həyata keçirilir. Bundan sonra girovsaxlayan əlavə qeydiyyat haqqında sənədə və həmin şəhadətnaməyə əsasən girov qoyulan malın satılması və ya öz adına keçirilməsi tələbi ilə girov şəhadətnaməsini mal anbarına təqdim edir.

Ödənişin yönəldilmə prosesinə qədər anbar şəhadətnaməsinin sahibi tərəfindən bu Əsasnamənin 7.1-ci bəndində göstərilən məbləği ödəməklə anbardan mal geri götürülərsə, onun tərəfindən mal anbarına ödənilən məbləğ girovsaxlayana verilir. Bu halda girov şəhadətnaməsi mal anbarına verilir və silinir. Hər iki halda mal anbarı QKDK-ya yazılı məlumat təqdim edir.

Ödəniş yönəldilməsi haqqında bildiriş girovqoyana təqdim edildikdən ən azı 30 gün keçdikdən sonra girovsaxlayanın girov qoyulmuş əmlakı satmaq və satışdan əldə edilmiş hasilatın hesabına təminatlı borcu ödəmək hüququ vardır.

7.3. Adi anbar şəhadətnaməsinin sahibi adi anbar şəhadətnaməsinə əsasən saxlanılan mallar üzərində sərəncam vermək hüququna malikdir. Adi anbar

şəhadətnaməsi ilə təsdiq edilən hüquqların başqasına verilməsi həmin şəhadətnamənin yeni sahibinə təqdim edilməsi yolu ilə həyata keçirilir.

Adi anbar şəhadətnaməsi sahibinin mal anbarında saxlanılan mallar üzərində sərəncam vermək hüququ yalnız onun adi anbar şəhadətnaməsinə sərəncam verməsi ilə həyata keçirilir. Bu zaman adi anbar şəhadətnaməsinin ötürülməsi malın yeni sahibinə verilməsi hesab olunur.

Adi anbar şəhadətnaməsinin girov qoyulması və bu girovla bağlı digər məsələlər "Girov haqqında" Azərbaycan Respublikasının Qanuna və QKDK-nın "Bütün növ qiymətli kağızlarla girovun və qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması" Qaydalarına uyğun olaraq həyata keçirilir.

VIII. Qoşa anbar şəhadətnaməsinin ötürülməsi

8.1. Qoşa anbar şəhadətnaməsi üzrə hüquqlar, anbar şəhadətnaməsi blankının arxa tərəfində edilən indossamentlər vasitəsilə ötürülür. Anbar şəhadətnaməsində fasiləsiz ardıcıl indossamentlər təsbit edilən hüququn başqasına keçməsini sübut edir.

Qoşa anbar şəhadətnaməsini verən mal anbarı və qoşa anbar şəhadətnaməsini və ya onun tərkib hissəsi olan anbar şəhadətnaməsini indossament edən bütün şəxslər həmin şəhadətnamə üzrə hüquqların həyata keçirilməsinə görə solidar məsuliyyət daşıyırlar.

Qoşa anbar şəhadətnaməsi və ya qirov şəhadətnaməsindən ayrılmış anbar şəhadətnaməsinin sahibi həmin qiymətli kağızı indossament edən şəxsə qarşı qiymətli kağızla təsdiq edilən öhdəliklərin yerinə yetirilməsi tələbini və mal anbarına təqdim edilmiş malın verilməsi haqqında tələbin yerinə yetirilməməsinə görə dəyən zərərlərin, (bu cür tələbin yerinə yetirilməməsi faktı köçürmə və sadə veksellər üçün müəyyən edilmiş qaydada təsdiq edildikdən sonra) ödənilməsi tələblərini irəli sürmək hüququna malikdir.

Girov şəhadətnaməsini imzalayan şəxs girov şəhadətnaməsinin sahibi qarşısında girovla təminat verilən öhdəliklərin yerinə yetirilməməsinə görə məsuliyyət daşıyır.

8.2. Anbar şəhadətnaməsində yazılan indossamentdə aşağıdakılar göstərilməlidir:

İndossantın, əgər o hüquqi şəxsdirsə,• hüquqi təşkilat forması göstərilməklə, tam adı;

İndossantın adından• imza səlahiyyətinə malik olan şəxsin, indossantın möhürü ilə təsdiqlənmiş şəxsi imzası;

İndossamentin yazılma tarixi.

Qaralanmış indossament etibarsızdır. İndossament heç nə ilə şərtləndirilmir, onu məhdudlaşdıran istənilən şərtlər etibarsızdır.

Anbar şəhadətnaməsində göstərilən malın və ya girov şəhadətnaməsi ilə təminat verilən borcun bir hissəsinin ötürülməsini nəzərdə tutan indossament etibarsızdır.

İndossamentin mətninə hər hansı bir şərt, qeyd və əlavə edilməsinə yol verilmir. Növbəti indossament verildiyi zaman, əvvəlki indossamentlərin, eləcə də anbar və ya girov şəhadətnamələrinin mətnlərində dəyişiklik edilməsinə yol verilmir.

İndossament, bu hüququn indossanta verilməməsi şərtilə, yalnız qiymətli kağızla təsdiq olunan hüququn yerinə yetirilməsi tapşırığı ilə məhdudlaşdırıla bilər.

Bu Əsasnamənin 8.2-ci bəndi ilə müəyyən edilən qaydalara əməl edilmədən həyata keçirilən indossamentlər etibarsız sayılır.

8.3. Borc yarandığı hallarında və girov şəhadətnaməsi qoşa anbar şəhadətnaməsindən ayrılan zaman qoşa anbar şəhadətnamənin sahibinin vəzifələri aşağıdakilardır:

• Müəyyən edilmiş məbləğin girov şəhadətnaməsini saxlayan şəxsə (indossata) və ya onun təyin etdiyi şəxsə şərtsiz ödənilməsi barədə qirov şəhadətnaməsində qeydlər yazmaq;

Girov şəhadətnaməsini QKDK-da dövlət qeydiyyatından• keçirtmək.

Girov şəhadətnaməsi verildiyi zaman onun üzərində müvafiq rekvizitlərlə bərabər borcun məbləği və şərtləri (ödəniş müddəti, faizləri, ödənişlə əlaqədar tələbin təqdim ediləcəyi yer) də göstərilir. Girov şəhadətnaməsi tərtib edildiyi zaman "Girov haqqında" Azərbaycan Respublikasının Qanuna, QKDK-nın "Bütün növ qiymətli kağızlarla girovun və qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması" Qaydalarına və bu Əsasnamənin tələblərinə əməl edilməzsə, həmin girov şəhadətnaməsi etibarsız, onun ayrılması isə qeyri-qanuni hesab edilir. Girov şəhadətnaməsində ayrılan vaxt onda aparılan qeydlər anbar şəhadətnaməsində də eynilə təkrarlanmalıdır.

IX. Anbar şəhadətnaməsilə aparılan əməliyyatlar

9.1. Qoşa və adi anbar şəhadətnaməsi, eləcə də bir–birindən ayrılıqda anbar və

girov şəhadətnaməsinin sahibləri onlar üzərində sərəncam vermək və əqdlər bağlamaq səlahiyyətinə malikdirlər.

Qoşa anbar şəhadətnaməsi, anbar və girov şəhadətnamələri, eləcə də adi anbar şəhadətnaməsi qiymətli kağızlarla alqı-satqı əməliyyatlarının, o cümlədən qiymətli kağızlar bazarında ticarətin təşkilatçıları vasitəsilə həyata keçirilən əməliyyatların obyekti ola bilər.

X. Anbar şəhadətnaməsinin itirilməsi və körlanmasının nəticələri

10.1. Adi anbar şəhadətnaməsi, qoşa anbar şəhadətnaməsi və ya onun hər hansı bir hissəsi itdikdə, şəhadətnaməni itirən şəxs dərhal mal anbarına yazılı şəkildə bu barədə məlumat verməlidir, və mal anbarı tərəfindən anbar şəhadətnaməsi reyestrində müvafiq qeyd aparılmalıdır.
Şəhadətnamənin nüsxəsi itdikdə yeni şəhadətnamə verilmir. İtmiş şəhadətnamə üzrə hüququn bərpa edilməsi, eləcə də bu hüquqların həyata keçirilməsi prossesual qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerinə yetirilir. Anbar şəhadətnaməsi itmiş malın saxlanmasını, əgər bu onun keyfiyyət xüsusiyyətinin itməsinə səbəb olmazsa, mal anbarı qeyri-müəyyən vaxta qədər uzada bilər.

İtmiş şəhadətnamə üzrə hüquqların bərpa edilməsi məhkəmənin qərarına əsasən həyata keçirilir. Saxlanma müddətinin uzadılmasına görə mal anbarının çəkdiyi xərclər itmiş anbar şəhadətnaməsi üzrə hüquqlarını bərpa edən şəxs tərəfindən ödənilir.

Anbar şəhadətnaməsinin blankı zədələndikdə, mal anbarı onun dəyişdirilməsini tələb edən şəxsin hesabına zəruri rekvizitləri dəyişdirmədən yeni anbar şəhadətnaməsi vermək hüququna malikdir. Körlanmış və ya zədələnmiş blank dövriyyədən çıxarılır, silinir və bu barədə anbar şəhadətnaməsi reyestrində qeydiyyat aparılır.

XI . Anbar şəhadətnamələrinin qeydiyyatı və dövlət reyestrinə daxil edilməsi

11.1. Azərbaycan Respublikasında anbar şəhadətnamələrinin buraxılması yalnız QKDK-da uçota alınmış mal anbarları tərəfindən həyata keçirilə bilər.

11.2. Uçota alınmaq üçün mal anbarı QKDK-ya aşağıdakı sənədləri təqdim etməlidir:

- hüquqi şəxsin adını, təşkilati-hüquqi formasını və hüquqi ünvanını əks etdirən ərizə;

- təsis sənədlərinin surəti;

- müvafiq lisenziyanın surəti (kömrük anbarları üçün);

- mal anbarının reqlamenti.

11.3. Sənədlər tam təqdim edildiyi gündən 10 iş günü ərzində QKDK tərəfindən baxılır, sənədlərdə çatışmamazlıq olmadıqda, mal anbarları uçota alınır və bu barədə müvafiq sənəd verilir.

11.4. Anbar şəhadətnamələrin qeydiyyata alınması və dövlət reyestrinə daxil edilməsi QKDK tərəfindən həyata keçirilir.
11.5. Anbar şəhadətnaməsinin sahibi anbar şəhadətnaməsini qeydiyyatdan keçirmək və dövlət reyestrinə daxil etmək üçün, aşağıdakı sənədləri QKDK-ya təqdim etməlidir:
- hüquqi şəxsin tam adını, təşkilati-hüquqi formasını və hüquqi ünvanını, fiziki şəxsin isə şəxsiyyətini təstiq edən sənədin məlumatlarını əks etdirən ərizə;

- mal üzərində xüsusi mülkiyyət, tam təsərrufatçılıq səlahiyyəti və ya səlahiyyətli idarəetmə hüququ təsdiq edən sənəd;

- müəyyən edilmiş qaydada doldurulmuş və imzalanmış anbar şəhadətnaməsi.

11.6. Təqdim olunmuş sənədlərə 5 iş günü müddətində baxılır və çatışmamazlıqlar və ya imtina üçün əsas olmadıqda, anbar şəhadətnaməsi dövlət reyestrində qeydiyyata alınır.

11.7. Anbar şəhadətnamənin üz tərəfinə QKDK-nın ştampı vurulur və müvafiq kitabda qeyd aparılır.

11.8. Yalnız dövlət reyestrində qeydiyyata alındıqdan sonra anbar şəhadətnamələri hüquqi qüvvəyə minir. Dövlət qeydiyyatından keçməyən və reyestrə daxil edilməyən ambar şəhadətnamələri hüquqi qüvvəyə malik deyil.

11.9. Ərizəçi təqdim etdiyi sənədlərdə olan məlumatın tamlığı və düzqünlüyü üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun məsuliyyət daşıyır.

11.10. Anbar şəhadətnamələrinin qeydiyyata alınmasından aşağıdaki hallarda imtina edilir:

- ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar aşkar edildikdə;

- təqdim olunmuş sənədlər və onlarda olan məlumatların məzmunu müvafiq qanunvericiliyin tələblərinə uyğun olmadıqda;

- qanunvericiliklə nəzərdə tutulan diqər hallarda.

11.11. Ərizəçi qeydiyyata alınmaqdan imtinaya əsas olmuş halları aradan qaldırdıqdan sonra müvafiq qaydada QKDK-ya müraciət etmək və ya imtina barədə qərarla razılaşmadıqda məhkəməyə müraciət etmək hüququna malikdir.

## XII. Məsuliyyət

Bu Əsasnamənin müddəalarını pozan şəxslər qanunvericiliyə uyğun olaraq müvafiq məsuliyyət daşıyırlar.

## XIII. Əsasnamənin qüvvəyə minməsi

Bu Əsasnamə imzalandığı gündən qüvvəyə minir.

**Садя анбар шящадятнамяси**

**Тягдим едяня**

Нцсхялярин сайы ____________________ № _________________

Мал анбары:______________________________________________

(ады, цнваны, банк реквизитляри )

_______________________ тягдим едяня ашаьыдакы малларын верилмяси ющдялийини цзяриня эютцрур:

(мал сахладыьы йер)

| МАЛЫН АДЫ | ЮЛЧЦ ВАЩИДИ | САЙЫ | КЕЙФИЙЙЯТ ХЦСУСИЙЯТИ | ГЕЙД |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

Сахлама мцддяти: __________________ Сахлама щаггынын мябляьи юдянилиб __________________ дюврцня гядяр

( эцн, ай, ил )

______________________________________________

(мябляь: рягямля вя сюзля)

Мал эюстярилян мцддятдян эеж эютцрулярся щяр эцня ялава юдянилян мябляь. ______________________

______________________ Верилмишдир:

______________________

(рягямля вя сюзля)

( эцн, ай, ил ) (шящяр, гясябя, кянд )

Хцсуси гейд: ______________________________________________

Мцдцр: ______________________________

М . Й. ______________

(имза)

Сыгорта щаггында гейд

Сыгортажи:______________________

Сыгорта мябляьи: ______________________

Сыгорта полиси:______________ Сыгорта мцддяти: __________

# Гоша анбар шящадятнамяси

Нцсхялярин сайы ____________ Щисся 1- Anbar шящадятнамяси № ___________________

Мал анбары:______________________________________________

(ады, цнваны, банк реквизитляри )

________________________ Бу шящадятнамянин щяр ики щиссясини тягдим едяня ашаьыдакы малларын верилмяси ющдялийини цзяриня эютцрур:

(мал сахладыьы йер)

| МАЛЫН АДЫ | ЮЛЧЦ ВАЩИДИ | САЙЫ | КЕЙФИЙЙЯТ ХЦСУСИЙЯТИ | ГЕЙД |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

Малын сащиби:

______________________________________________

(щцгцги шяхсин там ады, цнваны вя банк реквизитляри; физики шяхсин шяхсийятини тясдиг едян сянядин мялуматлары)

Мал анбара гойулуб: ______________________ Сахлама мцддяти: ______________________

( ким тяряфиндян )

Сахлама щаггынын мябляьи юдянилиб ________________дюврцня гядяр ________________

( эцн, ай, ил ) (мябляь: рягямля вя сюзля)

________________ Мал эюстярилян мцддятдян еж эютцрулярся щярэцня ялавя юдянилян мябляь ________

________________ Верилмишдир:

______________________________________________

(рягямля вя сюзля) ( эцн, ай, ил ) (шящяр, гясябя, кянд )

Эировла тяминат верилян бюржун мябляьи вя юдямя мцддяти.

______________________________________________

(рягямля вя сюзля)

________________ Хцсуси гейд: ______________________

Мцдцр: ______________________

Сыгорта щаггында гейд

М . Й. ____________
(имза)

Сыгортажи:
______________________________________________________

Сыгорта мябляьи:
______________________________________________

Сыгорта полиси:_______________ Сыгорта мцддяти:
_______________

## Гоша анбар шяћадятнамяси

Нцсхялярин сайы ____________ Щисся 2- Эиров шяћадятнамяси № ____________________

Мал анбары:____________________________________________________________
(ады, цнваны, банк реквизитляри )

_________________________ Бу шяћадятнамянин щяр ики щиссясини тягдим едяня ашаьыдакы малларын верилмяси юћдялийини цзяриня эютцрцр:
(мал сахладыьы йер)

| МАЛЫН АДЫ | ЮЛЧЦ ВАЩИДИ | САЙЫ | КЕЙФИЙЙЯТ ХЦСУСИЙЯТИ | ГЕЙД |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

Малын сащиби:
_____________________________________________________________________________________
(щцгцги шяхсин там ады, цнваны вя банк реквизитляри; физики шяхсин шяхсийятини тясдиг едян сянядин мялуматлары)

Мал анбара гойулуб: __________________________________ Сахлама мцддяти: ______________________________________________________
( ким тяряфиндян )

Сахлама щаггынын мябляьи юдянилиб ______________________________дюврцня гядяр ____________________________________________
( эцн, ай, ил ) (мябляь: рягямля вя сюзля)

________________________________________ Мал эюстярилян мцддятдян эеж эютцрулярся щярэцня ялава юдянилян мябляь _______________

__________________________________________ Верилмишдир:
______________________________________________________________________
(рягямля вя сюзля) ( эцн, ай, ил ) (шящяр, гясябя, кянд )

Эировла тяминат верилян бюржун мябляьи вя юдямя мцддяти.

______________________________________________
(рягямля вя сюзля)

______________________________ Хцсуси гейд: ________________________________________

Мцдцр: __________________________________

М . Й. ________
(имза)

Сыгорта щаггында гейд

Сыгортажи:
__________________________________

Сыгорта мябляьи:
_____________________________

Сыгорта полиси:__________ Сыгорта мцддяти:
__________